Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**



# Şuşanı bütün Türk dünyasının mədəniyyət paytaxtına çevirmək üçün nələr vacibdir...

**Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanın tarixində yeni dövr başlayıb. Azad Şuşanın tarixi-mədəni irsi, təbiəti, bütün infrastrukturu düşmən tərəfindən terrora, ziyana məruz qoyulsa da, Şuşanın dirçəldilməsi prosesi başlayıb və çox böyük sürətlə gedir. Bərpa-quruculuq işləri çox yüksək səviyyədə təşkil edilib.**

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanın Türk dünyasının paytaxtına çevrilməsi də aktuallaşıb. Hələ bir neçə ay əvvəl TÜRKSOY tərəfindən belə bir fikir irəli sürülmüşdü ki, Şuşa Türk dünyasının mədəniyyət paytaxtı seçilsin. Bu öz yerində.

**"Gələn il Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı olmasından şərəf duyarıq"**

Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayib Ərdoğan da Milli Məclisin xüsusi iclasında çıxışı zamanı gələcəkdə Şuşanın Türk dünyasının mədəniyyət paytaxtına çevriləcəyini qeyd edib. "Şuşanın gələcəkdə Türk dünyasının mədəniyyət paytaxtı olacağını görməkdən məmnun olarıq".

Ərdoğan bildirib ki, Şuşa ədəbiyyatın mərkəzi vəzifəsini qoruyub: "Bu şəhər dahi bəstəkar Üzeyir Hacıbəylinin, Bülbülün, Natəvanın və digər şairlərin yurdudur. Bu gün Şuşa ayağa qalxır. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi bu mənada dünyaya verilən açıq mesajdır.

Gələn il Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı olmasından şərəf duyarıq. Əlbəttə, təkcə Şuşa, Qarabağ deyil, Türk dünyasının bütün yerləri böyük şəxsiyyətlər yetişdirib".

**Şuşanın Türk dünyasının mədəniyyət paytaxtına çevrilməsi üçün nə etmək lazımdır?**

Şuşa bütün Türk dünyasının əsas ünvanlarından biri kimi diqqəti cəlb edir. Tarixən siyasi, hərbi, strateji, tarixi-mədəni əhəmiyyətinə görə Şuşa Qafqazda və Türk dünyasında öncül şəhərlərdən biri olub. İslam-türk mədəniyyətinin əsas özəklərindən olan bu şəhərdə mədəniyyətin bütün istiqamətləri yüksək səviyyədə inkişaf edib və bu inkişaf Şuşanı ən önəmli şəhərlər sırasına daxil edib. Türk dünyasının əsas qapılarından olan Şuşadan bütün dünyaya çıxış var və Şuşa dünya mədəniyyətlərinin birləşdiyi vacib ünvanlardan biridir.

Ekspertlər qeyd edirlər ki, bu il Azərbaycan mədəniyyətinin paytaxtına çevrilən Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı olması üçün də kifayət qədər əsas var. Şuşa zaman-zaman milli identikliyini qoruyub saxlayıb, hətta uzun illər işğalda olduğu dövrdə də türk yaddaşına sahib çıxıb, onu düşmən tapdağında belə qoruyub saxlaya bilib. Bu gün Şuşa öz ənənəvi ruhuna, ritminə uyğun şəkildə bərpa edilir, məscidləri, karvansaraları, tarixi binaları, abidələri bu şəkildə bərpa edilir. Şuşa təpədən dırnağa türk identikliyini, ruhunu yaşadan və qoruyan şəhərdir ki, oranın Türk dünyasının mədəniyyət paytaxtı olması üçün kifayət qədər əsas var.

Türkçülüyün beşiklərindən biri olan Şuşa şəhərinin Türk dünyasına Əhməd Ağaoğlu, Yusif Vəzir Çəmənzəminli kimi böyük türkoloqlar, aydınlar bəxş edən Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı olmasına potensialının olduğunu deyən ekspertlər hesab edirlər ki, Şuşa Türk dünyasının mədəniyyət paytaxtı kimi gələcəkdə bu missiyanı çox yüksək səviyyədə yerinə yetirə biləcək. Çünki Şuşanın bütün göstəriciləri bu parametrə tam uyğun gəlir.

Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı olması məsələsini şərh edən ekspertlər deyirlər ki, bu barədə Türk Şurası qərar qəbul edə bilər, yaxud TÜRKSOY-un belə bir qərarı ola bilər. Ekspertlər deyirlər ki, bütün Türk dünyası Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı seçilməsinə səs verməlidir.

**Şuşanın yeni dövrü...**

Vətəndaş Cəmiyyəti Alyansının rəhbəri, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, analitik-ekspert, yazıçı-kulturoloq Aydın Xan Əbilov "Bakı-Xəbər"ə bildirdi ki, Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı seçilməsi çox vacib məsələdir. A.X.Əbilovun sözlərinə görə, Şuşa bunu tam haqq edir.

"44 günlük müharibədən sonra möhtəşəm qələbə qazandıq. Qələbədən sonra ölkə başçısı, Ali Baş Komandan İlham Əliyev, ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən müharibənin fəsadlarının aradan qaldırılması üzrə konkret fəaliyyətə başlandı. Eyni zamanda da postmüharibə dövründə Ermənistanla və ermənipərəst qüvvələrlə informasiya savaşından da qalib çıxmağımız üçün mədəniyyətə, mədəniyyətin təbliğinə xüsusi yer verildi. Mədəniyyətə UNESCO-nun tələb etdiyi formada dövlət münasibəti sərgilənməyə başladı. Uzun illər Ermənistanın işğalında olan və erməni vandalizminə məruz qalan, dağıdılan rayonların bütün tarix-mədəniyyət, dini abidələri, təhsil ocaqları, muzeyləri, kitabxanalarının bərpasına, yenidən qurulmasına başlanıb. Həmçinin də Şuşada da bu quruculuq-bərpa işləri sürətlə gedir, Şuşa yenidən qurulur, dirçəlir.

Bir müddət əvvəl Şuşada "Xarı bülbül" musiqi festivalı keçirildi, ondan əvvəl isə Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edildi, Qafqazın mədəniyyət mərkəzi adlandırıldı.

Bildiyim qədər, İSESCO-da da Şuşanı İslam dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Çox sevindirici haldır ki, bununla paralel olaraq, Şuşanın Türk dünyasının paytaxtı elan edilməsi təşəbbüsləri var. Müsbət haldır ki, Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayib Ərdoğanın Qarabağın, Şuşanın yalnız Azərbaycanın deyil, bütövlükdə, bütün Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi təşəbbüsü, ideyası ilə çıxış etməsi Azərbaycan cəmiyyəti və Türk dünyası tərəfindən müsbət qarşılanır. Əslində, bu, çoxdan gözlənilən bir təklif idi".

**"Türkiyənin oynadığı rol..."**

Qardaş Türkiyənin hər zaman Azərbaycana böyük dəstək verdiyini deyən A.X.Əbilovun sözlərinə görə, 44 günlük Vətən müharibəsində Türkiyənin oynadığı bəlli rol alqışa layiqdir. "Cənab Prezident də dəfələrlə vurğuladı ki, qardaş Türkiyə Azərbaycanın haqq işində həmişə yanımızda olub. Şuşa Bəyannaməsinin imzalanması da, əslində, həmin qarşılıqlı yardımlaşmanı, dəstəyi və münasibətləri ən yüksək səviyyəyə qaldırdı. Fikir verin, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələrinin elm, texnologiya forumunda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın mədəniyyətə, təhsilə, ən yeni ağıllı texnologiyalara verdiyi önəmi xüsusi vurğuladı. Bu önəmin xüsusən də yeni yaranmış şəraitə uyğun olaraq Qarabağda tətbiq edilməsi, Şuşanın mədəniyyət, Ağdamın təhsil paytaxtı elan edilməsi mühüm idi. İşğaldan azad edilən ərazilərimizdə turizm üçün potensialın inkişafı çox önəmlidir.

Bilirsiniz ki, Füzuli də daxil olmaqla, şəhərlərimizdə əcnəbilərin bölgəyə rahat gəlib-getməsi, turistlərin əziyyətsiz səfər etməsi üçün yerli və beynəlxalq əhəmiyyətli aeroportlar inşa edilir. Eyni zamanda, "Zəfər yolu"nun salınması, yaşayış məntəqələrinin, binaların bərpası, inşası kimi layihələr, əslində, həm də Şuşanın, bütövlükdə, Türk dünyasının mədəniyyət paytaxtı olaraq seçilməsi çox təbii qarşılanacaq. Şuşanın bütün infrastrukturu, bütün tarixi abidələri, binaları və sair yenidən qurulur, bərpa edilir.

Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi həm də Turan ideyasının bir hissəsinin həyata keçməsi deməkdir. Şuşanın Türk dünyasının zəfər qazanmış bir mərkəzi məkanı olaraq Türk dünyasının da dünyada təbliğində mühüm rolu ola bilər. Əslinə baxanda Turan ideyası ilə yaşayan Türk dünyası, ziyalı kəsim, düşünən insanlar Türk dünyasının bir-birilə daha da yaxından qovuşmasında maraqlıdır. Dilimizin, adətlərimizin, mədəniyyətimizin, dünyagörüşümüzün bir-birinə qovuşması çox vacibdir. Eyni kökdən rişələnən bir toplumun bu vasitə ilə bir-birilə daha da yaxınlaşması bu imkanları bizə qazandırır".

**"...Şuşanı Türk dünyasının mədəniyyət paytaxtı elan etmək çox böyük fayda verəcək"**

"Müəyyən mənada Şuşanın yalnız Azərbaycan, Qafqaz üçün deyil, həm də Türk dünyası üçün çox böyük tarixi, siyasi, strateji əhəmiyyəti var" - deyən A.X.Əbilov hesab edir ki, Şuşanın mədəni dəyərləri, musiqi mədəniyyəti, mədəniyyət texnologiyaları qlobal kulturoloji, mədəniyyət hadisələridir. "Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı olması üçün bütün imkanlar var və bunun reallaşması mədəniyyət baxımından Türk dünyasının birləşməsi deməkdir. Biz buna nail ola bilərik. Musiqidən tutmuş, ədəbiyyata, elmə qədər geniş formada birləşmək imkanlarımız var. Şuşada Azərbaycanın dahi musiqiçiləri, mədəniyyət xadimləri ilə paralel olaraq, bütün türk xalqlarının dahiləri haqqında maraqlı tədbirlər keçirmək tam mümkündür. Türk xalqlarının şairlərini, yazıçılarını, mədəniyyət xadimlərini və sair bir-birinə tanıtmaq üçün bu məsələ çox önəmlidir. Türk dünyası ilə bağlı Şuşada çox maraqlı tədbirlər, konsert proqramları keçirmək olar. Əlbəttə, türk mədəniyyətinin çuğlaşdığı Şuşanı Türk dünyasının mədəniyyət paytaxtı elan etmək çox böyük fayda verəcək.

Azərbaycan ədəbiyyatını, poeziyasını mükəmməl bilən və hər çıxışında Azərbaycan şairlərinin əsərlərindən örnəklər gətirən, Bəxtiyar Vahabzadə, Şəhriyar, Füzulidən bütöv poetik nümunələri əzbər söyləyən qardaş ölkənin Prezidenti Ərdoğan çıxışlarla tez-tez Qərb texnologiyaları ilə yanaşı, Şərq mədəniyyətinə, mənəviyyatına, estetikasına da toxunur. Türk birliyinin gerçəkləşməsində həm Azərbaycan Prezidentinin, həm də Türkiyə Prezidentinin çox böyük əməyi var" - deyə bildirən A.X.Əbilov hesab edir ki, Şuşa Türk dünyasının ana şəhərlərindən, mədəniyyət mərkəzlərindən, paytaxtlarından biridir.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**